DOI: doi.org/10.61226/12.2.2023/20252.12
UOT: 91
Gülnarə QARACAYEVA
ARETN akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, böyük mütəxəssis
axundovagulnara21@gmail.com
https://orcid.org/0009-0009-2006-0434

QARABAĞ ƏRAZİSİNDƏ APARILAN PALEOCOĞRAFİ TƏDQİQATLARIN ƏSAS İSTİQAMƏTLƏRİ

Xülasə: Məqalədə Qarabağ ərazisində aparılan paleocoğrafi tədqiqatların əsas istiqamətləri araşdırılmışdır. Bildiyimiz kimi coğrafiya elmin tarixini bilmədən, onun keçdiyi yollar haqqında məlumatları əldə etmədən gələcəyi müəyyənləşdirmək mümkün deyil. Elmin öncəki tarixinin tədqiqi və dərindən təhlili isə keçmişlə müasir dövrü bağlayan körpüdür. Bu baxımdan uzun bir tarixi dövr ərzində doğma Vətənimizin dilbər guşələrindən biri olan Qarabağda aparılan paleocoğrafi tədqiqatların təhlili xüsusi aktuallığa malikdir.

Qarabağ Azərbaycanın ən qədim tarixi-coğrafi ərazilərdən biri kimi dünyada insan cəmiyyətinin coğrafi məkanlarından biri olmuşdur. Əsrlər boyu təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın iqtisadi, siyasi və mədəni həyatında mühüm, rol oynamışdır. Qarabağın olduqca zəngin tarixi-coğrafi keçmişi var. Burada yerləşən ilk insan məskəni olan Azıx mağarası bu tarixi keçmişin paleocoğrafiyası haqqında ən real elmi sübutlarını təsdiq edir.

Beləliklə, əldə olunmuş materiallar bir daha göstərir ki, Qarabağın relyefi olduqca qədim, mürəkkəb poleogeomorfoloji inkişaf tarixinə malikdir. Ona görə burada relyefin inkişaf mərhələləri əsasən 4 silsiləyə ayrılmışdır. Ərazinin paleocoğrafi formalaşması bu mərhələlərə tam uyğundur və paleogenetik tarixidə struktur differensiyasiyasının fərqini əks etdirir.

Açar sözlər: Azərbaycan, Qarabağ, Kiçik Qafqaz, paleocoğrafi tədqiqatlar.

GULNARA KARAJAEVA

THE MAIN DIRECTIONS OF PALEOGEOGRAPHIC RESEARCH CONDUCTED IN THE TERRITORY OF KARABAKH

Abstract: The article discusses the main directions of paleogeographic research conducted in the Karabakh region. As is known, it is impossible to determine the future of geography without knowing its history and the paths it has traveled. The study and deep analysis of historical science are a bridge connecting the past and the present. In this regard, the analysis of paleogeographic research conducted in Karabakh - one of the most beautiful corners of our homeland - over a long historical period is of particular relevance.

Being one of the most ancient historical and geographical territories of Azerbaijan, Karabakh has always been one of the geographical habitats of human society in the world. For centuries, it played an important role in the economic, political and cultural life of not only Azerbaijan, but also the entire South Caucasus. Karabakh has a very rich historical and geographical past. The Azykh Cave, the first human settlement located here, confirms the most realistic scientific data on the paleogeography of this historical past. Thus, the obtained materials once again show that the relief of Karabakh has a very ancient, complex history of paleogeomorphological development. Therefore, the stages of relief development here are mainly divided into 4 series. The paleogeographic formation of the territory fully corresponds to these stages, and its paleogenetic history also reflects the difference in structural differentiation.

Keywords: Azerbaijan, Karabakh, Lesser Caucasus, paleogeographic research.

Гульнара КАРАДЖАЕВА

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ПАЛЕОГЕОГРАФИЧЕСКИХ ИССЛЕДОВАНИЙ, ПРОВОДИМЫХ НА ТЕРРИТОРИИ КАРАБАХА

Абстракт: В статье рассматриваются основные направления палеогеографических исследований, проводимых в Карабахском регионе. Как известно, невозможно определить будущее географии, не зная ее истории и о пройденных ею путях. Изучение и глубокий анализ исторической науки являются мостом, соединяющим прошлое и настоящее. В этой связи особую актуальность приобретает анализ палеогеографических исследований, проводимых в Карабахе – одном из красивейших уголков нашей родины – на протяжении длительного исторического периода.

Будучи одной из древнейших историко-географических территорий Азербайджана, Карабах всегда был одним из географических мест обитания человеческого общества в мире. На протяжении веков он играл важную роль в экономической, политической и культурной жизни не только Азербайджана, но и всего Южного Кавказа. Карабах имеет очень богатое историческое и географическое прошлое. Пещера Азых, первое поселение людей, расположенное здесь, подтверждает самые реалистичные научные данные о палеогеографии этого исторического прошлого.

Таким образом, полученные материалы еще раз показывают, что рельеф Карабаха имеет очень древнюю, сложную историю палеогеоморфологического развития. Поэтому этапы развития рельефа здесь в основном делятся на 4 серии. Палеогеографическое формирование территории полностью соответствует этим этапам, а ее палеогенетическая история также отражает разницу в структурной дифференциации.

Ключевые слова: Азербайджан, Карабах, Малый Кавказ, палеогеографические исследования.

Giriş

Azərbaycan ərazisi hələ çox qədim zamanlardan özünün milli mədəniyyətinə, adət-ənənələrinə, coğrafi şəraitinin zənginliyinə görə Yaxın və Orta Şərq aləmində, xüsusilə Cənubi Qafqaz regionunda yaxşı tanınırdı. Ayrı-ayrı tarixi dövrlərdə Azərbaycanda olmuş məşhur səyyahlar, coğrafiyaşünaslar, həmçinin Azərbaycanın milli-mədəni zənginliyindən ticarət məqsədilə bəhrələnən tacirlər yeri gəldikcə yol qeydlərində, əsərlərində və şifahi təəssüratlarında Azərbaycan haqqında çox maraqlı fikirlər söyləmişlər. Lakin həmin coğrafi fikir və ideyaların əksəriyyəti hələ elmi cəhətdən tam əsaslandırılmadığından uzun müddət elmdə bəsit və təsviri xarakter daşımışdır. Yəni onlar Azərbaycanın paleocoğrafi təkamül mərhələsini, təbii-coğrafi şəraitin inkişaf qanunauyğunluqlarının dinamikasını və coğrafi şəraitin ekocoğrafi tendensiyasının real coğrafi aspektlərini tam əks etdirmirdi.

Bu baxımdan, hər bir elmin tarixinin öyrənilməsi, onun gələcək inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Keçmişimizin elmi axtarışlarını, səhvlərini və əldə etdikləri nailiyyətləri bilmədən elmin perspektivlərini müəyyən etmək qeyri-mümkündür. Tarix gələcəyin proqnozlarının əsaslarından biridir. Nə qədər ki insanlar yaşayır təbiətin tarixi və insanların tarixi biri-birilə bağlıdır və biri digərinə əsas yaradır. Vahid bir elm kimi formalaşan coğrafiya mürəkkəb inteqrasiya və differensassiya mərhələlərindən keçmişdir. İlkin olaraq təbiət və cəmiyyət elmləri tərkibində yaranan coğrafiyanın qolları sonrakı inkişaf mərhələlərində inteqrasiyaya uğrayaraq vahid elmə çevrilmişdir.

Coğrafiya elmin tarixini müzakirə etdikdə biz hamının qəbul etdiyi aşağıdakı müddəaya əsaslanırıq. Coğrafiya tarixin öyrənilməsi, bununla da onun yaranması və təşəkkülünün yolu və şəraitinin müşahidəsi inkişaf perspektivlərinin müəyyənləşdirilməsi, inteqrasiya qabiliyyətininin təminatı və elmi-texniki tərəqqinin hazırkı səviyyəsinin tələbatına uyğunluğu üçün lazımdır. Bu düstur müxtəlif nəsillərə aid bir sıra mütəfəkkir alimlərin, başlıca olaraq təbii təcrübələr aparan filosofların, astrofiziklərin, təbiətşünasların əsərlərində yer almışdır. Görkəmli alman coğrafiyaşünas səyyahı Aleksandr Humbolt (1769 – 1859) "Kosmos" əsərində qeyd edirdi: "Yer elminin keçmişini bilmədən hazırkı vəziyyətini dərk edə bilmərik". Antropocoğrafiyanın banilərindən biri olan alman

alimi Fridrix Radçelin (1844-1904) 1903-cü ildə Sankt-Peterburqda dərc edilmiş "Yer kürəsi və həyat" əsərində yazmışdır: "Coğrafiyanın tarixini bilmədən onu öyrənmək mümkün deyil. Bu həmin elmin xüsusiyyətidir. Başqa elmlərin də tarixlərini bilmək faydalıdır, coğrafiyanın elmini öyrənmək isə bilavasitə vacibdir". Tanınmış alman coğrafiyaşünası Alfred Getner (1859-1941) məsələyə aydınlıq gətirərək yazırdı: "Yalnız tarixi coğrafiyaya istinadən hazırkı zəmanəni dərk etmək mümkündür... Hər hansı elmin tam qavranması onu tarixi inkişaf nöqteyi-nəzərindən izləməsindən sonra mümkündür" [3, s. 20].

Bu baxımdan coğrafiya elmin tarixini bilmədən, onun keçdiyi yollar haqqında məlumatları əldə etmədən gələcəyi müəyyənləşdirmək mümkün deyil. Elmin öncəki tarixinin tədqiqi və dərindən təhlili isə keçmişlə müasir dövrü bağlayan körpüdür. Bu baxımdan uzun bir tarixi dövr ərzində doğma Vətənimizin dilbər guşələrindən biri olan Qarabağda aparılan paleocoğrafi tədqiqatların təhlili xüsusi aktuallığa malikdir.

Qarabağın coğrafi baxımdan öyrənilməsi

Qarabağ Azərbaycanın ən qədim tarixi-coğrafi ərazilərdən biri kimi dünyada insan cəmiyyətinin coğrafi məkanlarından biri olmuşdur. Əsrlər boyu təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın iqtisadi, siyasi və mədəni həyatında mühüm, rol oynamışdır. Qarabağın olduqca zəngin tarixi-coğrafi keçmişi var. Burada yerləşən ilk insan məskəni olan Azıx mağarası bu tarixi keçmişin paleocoğrafiyası haqqında ən real elmi sübutlarını təsdiq edir.

Aparılan ümumi geomorfoloji tədqiqatlar nəticəsində Kiçik Qafqazın şimal-şərq yamacında, o cümlədən Qarabağın təbii-coğrafi sektorunda bəzi dağdaxili iri çökəkliklərin xarakterizə olunan, o cümlədən Bakənd-Dəstəfur, Düzyurt-Slavyanka, Ağdam-Daşbulaq paleoçökəkliklərin yaranmasında və formalaşmasında tektonika ilə qədim çay dərələrinin fəaliyyəti haqqında fikirləri də elmi cəhətdən əhəmiyyətlidir.

Qarabağ dünyanın ən qədim insan məskənlərindən biridir. Yaşı 1,2 – 1,5 milyon il olan Quruçay mədəniyyəti, eləcə də 350-400 min il yaşa malik Azıxantrop, Tunc dövrünün mədəniyyət abidəsi sayılan Xocalı-Gədəbəy abidələri və daha neçə-neçə qədim arxeoloji abidələr burada aşkarlanmışdır. Ta qədimlərdən Qafqaz Albaniyasının tərkib hissəsi olan Qarabağda alban, arraz, qoroz, uti, qarqar, peçeneq və başqa tayfalar yaşamışdır [1, s. 45].

Qeyd etmək lazımdır ki, son illər Azərbaycanda coğrafi tədqiqatların sayında, o cümlədən geomorfoloji öyrənmələrdə güclü dönüş yaranmışdır. Aparılan tədqiqatlarda ərazilərin geomorfoloji quruluşu və yaxud relyefin səthinin təsviri yox, paleo, eko, geomorfoloji formalaşmanda geodinamik, geotektonik proseslərin və xüsusilə endogen və ekzogen proseslərin relyefin dəyişməsində rolu morfometrik üslublarda öyrənilmişdir. Xüsusilə müasir geomorfologiyası şəraitində gedən dinamik yeniləşmənin prespektiv mexanizminə dair proqnoz xarakterli fikirlər olmuşdur.

Bu məqsədlə 1960-ci illərdə M.İ.Məmmədov tərəfindən Kiçik Qafqazın Murovdağ silsiləsinin şimal yamacında geomorfoloji proseslərin, xüsusilə errozion proseslərin öyrənilməsi istiqamətində tədqiqatlar aparılmışdır. Bu tədqiqatın nəticəsində dağlıq ərazilərdə eroziya proseslərinin relyefəmələgətirici amillərin qarşılıqlı səbəbləri və coğrafi inkişaf qanunauyğunluğu aşkar olunmuşdur. Müəyyən olunmuşdur ki, bəzi yerlərdə eroziya prosesinin fəallaşmasında və yaxud yeni lokal hadisələrin əmələgəlməsində insanların təsərrüfat fəaliyyəti xüsusilə onların təsiredici rolu güclənir [3, s. 278].

Burada əsas relyef tiplərinin qalıqları, qədim buzlaq formaları, dağdaxili çökəkliklər, dərin çay dərələri, müxtəlif yarğanlar, dağüstü düzəlmə səthləri və s. üstünlük təşkil edir.

Müəyyən olundu ki, Kiçik Qafqazın şimal-şərq yamacında dağlıq ərazilərdə erozion dərinlik bazisi (200-1000) getdikcə artır. Ərazinin 70%-dən çox hissəsi bu tipli inkişaf xüsusiyyətinə malikdir. Tərtib olunmuş morfometrik və erozion parçalanma xəritələri eroziya proseslərinin çoxillik artım dinamikasını tamamilə əks etdirir. Beləliklə, errozin parçalanma dərəcəsinin müqayisəli təhlil göstərir ki, ərazinin 60-70%-nin parçalanma sıxlıq 0,5-2.0 km/km^2 arasında dəyişir. Yəni ərazinin təxminən 70%-i orta və çox parçalanma dərəcəsinə meyllidir [10, s. 12].

Azərbaycanın paleocoğrafiyaçıları dördüncü dövrün tarixi tədqiqi ilə yanaşı, ibtidai insanın ekoloji, yaşayış mühiti Cənubi Qafqaz ərazisində Pliosenin xronologiyası və palio təbii şərait

haqqında vacib problemləri üzrə də geniş tədqiqatlar aparmışdır, yeni elmi nəticələr almışlar. Qədim Daş dövrü düşərgəsi (Azıx mağarası) ekologiyasının tədqiqi nəticəsində düşərgənin ən qədim mədəni təbəqələrinin mütləq yaşı müəyyənləşdirilmiş və burada ibtidai insanların məskunlaşdığı dövrdə mövcud təbii-coğrafi şərait bərpa edilmişdir. Aşkar edilmişdir ki, ibtidai insanlar qədim Azıx mağarasında 1 milyon il bundan öncə məskən salmışlar. Bu dövrdə mağara ətrafı rayonlarda mülayim iqlim və zəngin bitki, heyvanat aləminə malik təbii şərait mövcud olmuşdur. Mağaranın dib çöküntülərində insan izi olmayan təbəqələrin yoxluğu mağaranın formalaşdığı vaxtdan ibtidai insan tərəfindən milyon illər əvvəldən başlayaraq zəbt edildiyinə sübutdur. Eyni zamanda bütövlükdə Azərbaycanın paleocoğrafiyasının keçmiş rasionallığı təsdiq etmişdir [9, s. 92].

Cənubu Qafqaz Pliosenin xronologiyası üzrə aparılmış tədqiqatlar nəticəsində ilk dəfə olaraq mağaranın radiometrik şkalası işlənilmiş və bunun əsasında ayrı-ayrı stratiqrafik vahidlərin xronoloji sərhədləri təyin edilmiş, okeanların zonal stratiqrafiyası və vahid paleomaqnit stratiqrafik şkalası ilə korrelyasiya sxemi tərtib olunmuşdur.

Paleocoğrafiya sahəsində qazanılmış nailiyyətlərdən biri də ərazidə Pliosen iqlim optimumu dövründə Azərbaycan ərazisində yaranmış təbii şəraitin o cümlədən paleolandşaftı bərpa edilmişdir. Bu işin olduqca böyük paletarixi-coğrafi proqnoz xarakterli əhəmiyyəti vardır.

Təxminən 1980-ci illərə qədər Azərbaycanda paleocoğrafiyası o cümlədən Qarabağ coğrafiyasına dair tədqiqatların əksəriyyəti coğrafi şəraitin yalnız təsvirinə həsr olunmuşdur. Lakin sonrakı mərhələlərdə Azərbaycanda paleocoğrafi təkamülün müəyyən geoloji və paleontoloji dövrlərdəki vəziyyəti öyrənilməyə başlandı. Xüsusilə dövrlər üzrə aparılan paleocoğrafi tədqiqatların elmi nəticələri daha uğurlu və inandırıcı olmuşdur. Burada müasir coğrafi komponentlərin ayrılıqda inkişaf tarixi və onların formalaşmasını təşkil edən coğrafi amillərin qarşılıqlı təhlili daha yaxşı nəticələr verdi. Ona görə də bu sahədə ildən-ilə aparılan tədqiqatların aktuallığı və metodoloji yanaşmaların istiqaməti də tədricən yeniləşdi. O cümlədən Qarabağ ərazisində müxtəlif çay hövzələrində aparılan hidroloji tədqiqat işləri bu sahədə elmi maraq doğurdu [3, s. 289].

Bu baxımdan son vaxtlarda daha aktual paleocoğrafi tədqiqatların sayı getdikcə artırdı. Sistemli və ardıcıl xarakter alındı. Azıx və Tağlar mağaralarının timsalında ilk dəfə olaraq M.Süleymanov ibtidai insanların yaşam mühitinin paleocoğrafi təhlilini aparmışdır. Mövcud coğrafi mühitə əsaslanaraq ayrı-ayrılıqda dövrlər üzrə paleocoğrafi şəraitin fərqlərini və hər bir dövrün məkan və zaman xüsusiyyətlərini analiz etmişdir. Bununla da həmin mağaralarda ilkin yaşayış mühitinin çoxillik paleocoğrafi xarakteristikasını bərpa etmişdir. Yəni ilk dəfə olaraq təbiətlə ibtidai insanların qarşılıqlı asılılığı və əlaqələrin coğrafi mövcudluğu haqqında real elmi fikir söyləmişdir. Çünki qədim coğrafi mühitin paleocoğrafi göstəriciləri həqiqətən insanların fəaliyyətlərində, davranış keyfiyyətlərində və qidalanmasında xüsusi rola malikdir. Bunlardan başqa, Azıx mağarasının mövcudluğuna görə dünyada ibtidai insanların bir neçə dəfə burada yaşayış səviyyəsinin dəyişməsi və mağaranın 1 milyon ildən çox yaşı olması təcrübi cəhətdən Azərbaycan ərazisinin tarixi-coğrafi qədimliyini bir daha təsdiq edir. Eyni zamanda, bu, insan cəmiyyətinin formalaşmasında və yaxud insanların məkan və zaman daxilində şüurlu təkamülünün coğrafi şəraitdən asılılığını göstərir. Tədqiqatçı Azərbaycanın Qarabağ ərazisində olan Tağlar mağarasının nisbətən cavan olmasını, yəni xvalin dövrünün ilk başlanğıcında formalaşmağa başladığını vurğulamışdır [9, s. 34].

Kiçik Qafqazın Qarabağ hissəsində müasir coğrafi şəraitin öyrənilməsində B.Ə.Budaqovun, Ə.Ş.Şıxəlibəylinin, Ə.V.Məmmədovun, M.A.Müseyibovun, N.Ş.Şirinovun tədqiqatları xüsusilə qeyd edilməlidir. Bu alimlər öz tədqiqatları əsasında hələ 1960-ci illərin axırlarında Azərbaycan Respublikasının o cümlədən Qarabağ ərazisinin orta miqyaslı neotektonik xəritəsini tərtib etmişlər və bu maraqlı xəritə 1972-ci ildə nəşr edilmişdir. Akademik Ələşrəf Məmmədovun Azərbaycan elmində yəni coğrafi tapıntı olan Azıx mağarası Azərbaycanda 1,2 mln il bundan əvvəlki İlk paleolit İbtidai İnsan cəmiyyətinin mövcudluğunu bütün dünyada tanıtdı [1, s. 64].

Aparılan tədqiqatlar nəticəsində Qarabağ ərazisində diferensial neotektonik hərəkətlər nəticəsində əmələ gəlmiş bir-birindən daha çox fərqlənən silsilə dağlar, yayla və çökəkliklər tədqiq edilmişdir. İntensiv qalxma zonaların formalaşmış əsas morfostrukturlarından Murovdağ, Qarabax silsiləsini göstərmək olar. Onlarda öz növbəsində ərazidə oroqrafik kontrastlığı artırır. Bunlara həmçinin Şınıx-Dəstəfur, Umudlu, Xocalı, Həkəri, Kəlbəcər çökəklikləri misal ola bilər [8, s. 49].

Tədqiqatın ən qiymətli elmi dəyərlərindən biri də müasir landşaftın potensial imkanlarının istehsal keyfiyyətini əks etdirən təbii məhsuldarlıq xəritəsinin və cədvəlinin müəyyənləşdirməsi olmuşdur. Yəni müasir landşaftın təbii məhsuldarlıq keyfiyyətinin pasportlaşması müəyyənləşdirmişdir. Eyni zamanda ilk dəfə olaraq ərazinin müasir landşaftlarının morfogenetik xəritəsini və kompleks formalaşmasında iştirak edən coğrafi amillərin korrelyativ əlaqələrini öyrənmişdir. Eyni zamanda ilk dəfə olaraq dağlıq yaylaqlarda təbii çəmənliklərin qida mənbəyi kimi potensial imkanların əks etdirən vahid normativ cədvəli tərtib olunmuşdur. İlk dəfə olaraq Qarabağ ərazisində landşaftın kartometrik riyazi metodla tədqiqi aparılmışdır. Nəticədə kartoqrafik-statistik metodla landşaftın statistik paylanması yəni landşaft tiplərinin, yarım tiplərinin və növlərinin diferensial yayılma xarakteri müəyyənləşdirilmişdir. Beləliklə riyazi metodla müəyyən olunmuşdur ki, dağlıq ərazilərdə sahə böyüdükcə fərqli landşaft konturlarının sayı və təkrarlanma tezliyi azalır. Yəni landşaft daxili növ təkrarlanması tezliyi zəifləyir. Deməli, landşaftların növdaxili parçalanma xəritələrinin analizi elmi cəhətdən növdaxili bioloji müxtəlifliyə əsaslanmışdır. Konkret ərazilərdə landşaftın-struktur ərazi zonallıq qanunauyğunluğu əslində landşaftın məkan dəyişməsi təkrarlanmasını əks etdirir. Tərtərçay hövzəsinin təbiəti xüsusilə dağ çəmənlikləri Azərbaycanda maldarlıq təsərrüfatlarının inkişafında əvəzsiz yem bazası sayılır. Bu barədə tədqiqatçılar M.Süleymanov, B.Budaqov, A.Mikayılov, M.Müseyibov, A.Mikayılov, Əlizadə, A.Haqverdiyev və s. tədqiqat əsərlərində geniş məlumatlar verilmişdir [6, s. 19; 3, s. 267].

Təxminən 1980-ci illərə qədər Azərbaycanda paleocoğrafi tədqiqatların əksəriyyəti ümumi coğrafi şəraitin yalnız təsvirinə həsr olunmuşdur. Lakin sonrakı mərhələlərdə Azərbaycanda paleocoğrafi təkamülün müəyyən geoloji və paleontoloji dövrlərdəki vəziyyəti öyrənilməyə başlandı. Dövrlər üzrə aparılan paleocoğrafi tədqiqatların elmi nəticələri daha uğurlu və inandırıcı olmuşdur. Burada paleocoğrafi komponentlərin ayrılıqda inkişaf tarixi və onların formalaşmasını təşkil edən coğrafi amillərin təhlili daha yaxşı nəticələr verdi. Ona görə də bu sahədə kadrların sayı artdıqca paleocoğrafi tədqiqatların aktuallığı və metodoloji yanaşmaların istiqaməti də tədricən yeniləşdi. O cümlədən Kiçik Qafqazın şimal-şərq yamacında "Zəyəmçay və Şamxorçay hövzələrində antropogen paleocoğrafiyası" mövzusunda aparılan tədqiqat işi bu sahədə həm ilk və həm də çox maraqlı olmuşdur. Tədqiqatçı həmin ərazidə relyefin paleocoğrafi dinamikasını əksetdirən çay dərələrində altı terras yüksəkliyi müəyyən etmişdir. Terrasların əksəriyyəti orta və alçaq dağlığın ətəklərinə uyğun gəlir. Bunlar isə paleocoğrafi təkamülün mərhələli inkişafının ən yaxşı göstəricisidir. Dağdaxili çökəkliklərdə terrasların pilləli yerləşməsində paleocoğrafi reallığın ardıcıllıq dinamikası aydın seçilir [7, s. 16].

Bildiyimiz kimi ümumi bəşər coğrafiyasında, onun paleocoğrafi təkamülündə Dördüncü dövr olduqca böyük təzadlar mənbəyi hesab olunur. Xüsusilə iqlimin kəskin qloballaşması, onun üfüqi və şaquli transformasiyası, buzlaşmaların baş verməsi, landşaft və onun əsas aparıcı komponenti olan iqlimin qurşaqlıq düzülüşü (səhralaşma) xüsusiyyətləri Ağdam regionunda öz əksini tapmışdır. Çünki hazırda Ağdam zonasında onun çevrəsində bütün təbii landşaft komplekslərinin ümumi inkişaf tendensiyası bilavasitə coğrafi zonallıq prinsipinə tabeli olaraq formalaşmışdır.

Azərbaycanın tərtib olunmuş (1:500 000) "Dördüncü dövr çöküntüləri" xəritəsi və "Dördüncü dövr çöküntülərinin geomorfologiyası" adlı monoqrafiyalarında tədqiq olunan regionun çoxəsrlik dinamikasını, hər tərəfli təhlil etmişdir. Ağdam rayonunun paleolandşaftına yaxın tarixi təkamül dinamikasına dair onun qonşuluğunda yerləşən Azıx qədim Daş dövrü düşərgəsi nəticəli ibtidai insan cəmiyyətinin paleogenetik coğrafiyası eyni zamanda bütün paleolandşaftın coğrafiyasının tarixi-elmi məlumatlara malikdir. Xüsusilə ərazilərdə ibtidai cəmiyyətin, insanların, ekologiyasının coğrafi keyfiyyətlərə malik olmasını araşdırmağa çox güclü tarixi məlumat verir [11, s. 102].

"Kiçik Qafqazın şərq hissəsi timsalında morfostruktur və paleogeomorfoloji təhlil və relyefin öyrənilməsinin axtarış əhəmiyyəti" adlı mövzu isə olduqca aktual və perspektiv elmi istiqamətlərə həsr olunmuşdur [4, s. 21]. Burada morfostruktur və paleocoğrafi formalaşmaya elmi-nəzəri cəhətdən yeni aspektdən baxılmışdır. İlk dəfə Kiçik Qafqazın morfostrukturların və paleocoğrafiyasının formalaşmasının coğrafi qanunauyğunluğu öyrənilmişdir. Dağüstü düzəlmə sətlərinin və denudasiyon kəsilmələrin qalınlığına və yaşına dair yeni elmi faktlar əlavə olunmuşdur. Morfostruktur, paleogeomorfoloji, orotektonik və morfostruktur proqnoz xəritələri ilk dəfə tətbiq

olunmuşdur. Bir sıra dağdaxili çökəkliklərin orogeomorfoloji mənşəyi müəyyənləşdirilmiş və onlar mərkəzi, dairəvi, həlqəvi və günbəzvarı formalara ayrılmışdır. Kiçik Qafqazda relyefin təkamülünə tamamilə yeni aspektdən baxılmış və onun Alp mərhələsində tam penepenləşmə mümkünlüyü təhlil olunmuşdur. Müəllifin bu kimi yeni fikirlərinin əsası tədqiqatlarda ümumi təkamül tarixinə neomobilizm mövqeyindən baxması olmuşdur. Yəni relyefin təkamül mərhələlərinə tarixi epoxalar üzrə yanaşılmışdır.

Nəticə

Beləliklə, əldə olunmuş materiallar bir daha göstərir ki, Qarabağın relyefi olduqca qədim, mürəkkəb poleogeomorfoloji inkişaf tarixinə malikdir. Ona görə burada relyefin inkişaf mərhələləri əsasən 4 silsiləyə ayrılmışdır. Ərazinin paleocoğrafi formalaşması bu mərhələlərə tam uyğundur və paleogenetik tarixidə struktur diferensiyasiyasının fərqini əks etdirir. Yuxarıda söylədiklərimizə yekun vuraraq qeyd etmək lazımdır ki, tarixi Azərbaycan ərazisi olan Qarabağın coğrafi cəhətdən elmi biliklər sistemi çərçivəsində təhlili, bu sahənin əsas istiqamətinin yaranmasını və təşəkkülünü müşahidə etməyə imkan verər.

Ədəbiyyat

1. Coğrafiya elmi 50 ildə / elmi redaktor B.Budaqov. – Bakı: Elm, – 1996. – 168 s.
2. Haqverdiyev, A.T. Orta dağlıq qurşaqda landşaftın diferensiasiyasına relyefin təsiri. (Kiçik Qafqazın şimal-şərq yamacı timsalında) tədqiqi: / coğrafiya elmlər namizədi dis. avtoreferatı. / – Bakı, 1975. – 26 s.
3. Haqverdiyev, A.T. Azərbaycan coğrafiyası: formalaşma mərhələləri, inkişafının prioritet istiqamətləri / A.T.Haqverdiyev. – Bakı: "Avropa" nəşriyyatı, – 2020. – 380 s.
4. Xəlilov, H.A. Kiçik Qafqazın şərq hissəsi timsalında morfostruktur və paleogeomorfoloji təhlil və relyefin öyrənilməsinin axtarış əhəmiyyəti: / coğrafiya elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2004. – 64 s.
5. Məmmədov Q. Ş. Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadı və ekoloji əsasları / Q. Ş.Məmmədov. – Bakı: Elm, – 2007, – 856 s.
6. Mikayılov, A.A. Qusar maili düzənliyi və onun ətraf sahillərinin geomorfoloji quruluşu (Azərbaycan SSR və Dağıstan SSR daxilində): / coğrafiya elmlər namizədi dis. avtoreferatı. / – Bakı, 1970. – 26 s.
7. Mirzəyev, Ş.İ. Həkəri çay hövzəsinin yuxarı hissəsində palıd və vələs meşələrinin dağ-meşə torpaqları və onların meşəçilik xüsusiyyətləri): / coğrafiya elmlər namizədi dis. avtoreferatı. / – Bakı, 1970. – 26 s.
8. Müseyibov, M.A. Azərbaycanın fiziki coğrafiyası / M.A.Müseyibov. – Bakı: "Maarif", – 1998, – 400 s.
9. Süleymanov, M.Ə. Azərbaycanın təbii və antropogen landşaftlarının qanunauyğunluqları / M.Ə.Süleymanov. – Bakı: "Əbilov, Zeynalov və oğlanları" – 2005. – 248 s.
10. Tanrıverdiyev, X.K. Həkəri çayı hövzəsinin geomorfologiyası): / coğrafiya elmlər namizədi dis. avtoreferatı. / – Bakı, 1968. – 28 s.
11. Али-Заде, С.А., Байрамов, А.А., Мамедов, А.В., Ширинов, Н.Ш. Геология четвертичных отложений Азербайджана / С.А.Али-Заде, А.А.Байрамов, А.В.Мамедов, Н.Ш. Ширинов. – Баку: Элм, – 1978. – 165 с.

Məqalənin redaksiyaya daxilolma tarixi: 11.04.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 14.04.2025
Məqalənin çapa qəbul olunma tarixi: 23.04.2025